Vahid ƏZİZ

# BİZLƏRƏ KİM BATAR BİRLİK OLANDA!

Tarixə dönməkdə bu ilin yönü —
qoyular yeni bir vaxtın təməli,
amma millətimin Həmrəylik Günü
bütün bayramlardan daha irəli!

Yeni il həm də ki, yeni bir bahar —
çəmənlər göyərib, güllər açacaq,
qarşıda o qədər şənliklərim var;
birinci sevincim “Novruz” olacaq!

İl bitir, hələ ki, qış fəslindəyik,
hələ ki, gecələr gündən uzundu,
yolkalar gətirib, evlər bəzədik,
üstünə Yeni il şamları qondu.

Amma ən gözəli elin vüsalı!
onu əbəs yerə xatırlatmıram,
millətdən aralı, eldən aralı
bəxtəvər olanı xatırlamıram!

Bizlərə kim batar birlik olanda,
tarixim dözülməz olub, bilirəm!
Qürbətdə, lap elə, keflə qalanda
susuz çiçək kimi solub gəlirəm.

Alışın, Yeni il şamları, yanın,
Yurdumnan qəsbkar yadlar qovulsun,
Həmrəylik bayramın, Azərbaycanım,
həm də Yeni ilin mübarək olsun!